QANUN № 01 (375), 2026, s. 120-126



**Hacıyeva Gülsüm Namiq qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının
II kurs magistrantı, "Yeni Klinika" publik hüquqi şəxsi
Ünvan: Bakı şəhəri, Nizami rayonu, H.Əliyev pr. 142
E-mail: hcyvagllsm@gmail.com

**UOT 342.9**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4046**

# İNZİBATİ MƏHKƏMƏDƏ HAZIRLIQ İCRAATI

***Açar sözlər:*** *inzibati məhkəmə icraatı, məhkəmə müdafiəsi, ilkin baxış, formal tələblər, müddət.*

***Ключевые слова:*** *административное судебное производство, судебная защита, предварительное рассмотрение, формальные требования, срок.*

***Keywords:*** *administrative court proceedings, judicial protection, preliminary examination, formal requirements, term.*

Son dövrlərdə ölkəmizdə həyata keçirilən bir sıra islahatlar nəticəsində inzibati hüquq sahəsi əhəmiyyətli dərəcədə dəyişikliklərə məruz qalmış, vətəndaş nəzarəti, inzibati ədliyyə və inzibati məhkəmə icraatı kimi institutlar isə xüsusi aktuallıq kəsb etməyə başlamışdır. Sözügedən islahatlar dövləti daha çox sosial ziddiyyətləri aradan qaldıran funksiyaya malik orqanizmə çevirmiş, demokratik prinsip və dəyərlər isə daha çox ön plana çıxmağa başlamışdır. Xüsusilə də demokratik, hüquqi dövlət quruculuğu və səmərəli idarəetmə sisteminin formalaşdırılması məqsədilə aparılan ardıcıl və məqsədyönlü tədbirlər müasir dövrümüzdə inzibati məhkəmə icraatının inzibati hüququn aktual institutlarından birinə çevrilməsinə səbəb olmuşdur [6, s. 14].

**Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı** Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsində öz əksini tapmışdır. Belə ki, həmin maddənin məzmununa əsasən, Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər [1].

Hazırda inzibati məhkəmə icraatı hakimiyyət səlahiyyətinə malik olan inzibati orqanın qanunsuz inzibati aktından və hərəkətindən (hərəkətsizliyindən) vətəndaşların hüquqlarını müdafiə edən qanunvericilikdə nəzərdə tutulmuş əsas mexanizmlərdən biri hesab olunur [6, s. 26] Bu icraat növü inzibati-hüquq münasibətləri ilə bağlı meydana gələn mübahisəli işlər üzrə həyata keçirilir, mübahisənin həllinə yönəlir və zərurət yarandığı təqdirdə prosessual müdafiə tədbirlərinin həyata keçirilməsini də nəzərdə tutur [6, s. 28]. Yəni inzibati məhkəmə icraatı dedikdə, inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə məhkəmədə baxılması və həll edilməsi üzrə qanunla nizamlanmış prosessual fəaliyyət başa düşülür [5, s. 449].

AR Prezidentinin inzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli qanunun tətbiqi haqqında sərəncamı 2020-ci il yanvarın 1-dən etibarən qüvvəyə minmişdir. Sözügedən sərəncama əsasən inzibati-iqtisadi məhkəmələr ləğv edilmiş, inzibati və kommersiya məhkəmələri yaradılmışdır [5, s. 449].

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatı "İnzibati məhkəmə icraatı" anlayışı adı altında ifadə olunmuşdur [6, s. 24]. İnzibati məhkəmə icraatı çərçivəsində ilkin mərhələ hazırlıq icraatı hesab olunur ki, bu mərhələyə dair hüquqi müddəa öz əksini Azərbaycan Respublikasının hal-hazırda qüvvədə olan İnzibati Prosessual Məcəlləsinin 49-cu maddəsində öz əksini tapmışdır. İnzibati Prosessual Məcəllənin 49-cu maddəsi hazırlıq icraatının hüquqi mahiyyətini, məhkəmənin bu mərhələdə həyata keçirdiyi prosessual hərəkətlərin dairəsini və sübutların toplanmasına dair səlahiyyətlərini müəyyən edən əsas normadır. Hazırlıq icraatı inzibati mübahisəyə mahiyyəti üzrə baxış mərhələsi üçün hüquqi və faktiki zəmin yaradır, eyni zamanda məhkəmə tərəfindən işin tam, hərtərəfli və obyektiv araşdırılması baxımından həlledici rol oynayır. Həmin maddənin məzmununa əsasən, Sədrlik edən hakim şifahi məhkəmə baxışı başlayana qədər, hüquqi mübahisənin bir şifahi məhkəmə iclası çərçivəsində həll olunması (mübahisə ilə bağlı işin mahiyyəti üzrə qərar qəbul olunması) üçün bütün zəruri tədbirləri görməlidir. Bu məqsədlə sədrlik edən hakim işin hallarını və mübahisənin vəziyyətini müzakirə (izah) etmək, habelə hüquqi mübahisəni barışıq yolu ilə nizama salmaq (həll etmək) və barışıq sazişinin bağlanmasına yardım etmək məqsədi ilə tərəfləri, zərurət olduğu hallarda digər proses iştirakçılarını dəvət etmək; işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif etmək; hazırlıq sənədlərini (ərizələrini, vəsatətlərini, izahatlarını, etirazlarını) tamamlamağı və ya aydınlaşdırmağı, iş üzrə materiallarda saxlanılması mümkün olan sənədlərin və predmetlərin məhkəməyə təqdim olunmasını proses iştirakçılarına təklif etmək, dəqiqləşdirmə tələb edən müəyyən halların izah olunması üçün müddət təyin etmək; zəruri sənədləri (arayışları, məlumatları) toplamaq; tələb olunan sənədlərin təqdim olunması barədə sərəncam vermək; proses iştirakçılarının şəxsən məhkəməyə gəlmələrinə dair sərəncam vermək; şahidləri, ekspertləri və mütəxəssisləri dəvət etmək ilə əlaqədar hərəkətləri etmək səlahiyyətinə malikdir [2].

İnzibati Prosessual Məcəllənin 49-cu maddəsinin məzmunundan göründüyü kimi, hazırlıq icraatının əsas məqsədi işin mahiyyəti üzrə baxışı üçün zəruri şərait yaratmaqdır. Bu mərhələdə hakim aşağıdakı məsələlərin müəyyən edilməsinə yönəlmiş fəaliyyət göstərir:

- mübahisənin predmeti və tərəflərin mövqeləri arasında ziddiyyətlərin aydınlaşdırılması;
- işin hüquq normalarının tətbiqi baxımından izah tələb edən hallarının müəyyən olunması;
- tərəflərin iddia və etirazlarını əsaslandıran faktların iş materiallarında əksini tapıb-tapmaması;
- hansı sübutların əlavə toplanmasına ehtiyacın olması;
- tərəflərin hüquq və vəzifələri barədə məlumatlandırılması.

Bundan başqa hakim hazırlıq icraatında mərhələsində aşağıdakı məsələləri də yoxlayır:

- ərazi və predmet aidiyyəti baxımından iddianın verildiyi məhkəmə işə baxmaq səlahiyyətindədirmi;
- iş üzrə tərəflər dinlənildikdən sonra İPM-in 8-ci maddəsinə müvafiq olaraq mübahisənin

aidiyyəti müəyyənləşdirildikdə, həmin işi aidiyyəti üzrə müvafiq səlahiyyətli məhkəməyə göndərməlidirmi;

- İPM-in 28-ci maddəsinə müvafiq olaraq hər hansı bir üçüncü şəxsin inzibati məhkəmə icraatına "cəlb edilməsi" zəruri və ya ən azı məqsədəuyğundurmu;

- proses iştirakçısının bu vaxta qədər hələ məlumatlandırılmadığı məsələ ilə bağlı dinlənilmə hüququ təmin edilməlidirmi [5].

Hakimin bu mərhələdə əhəmiyyətli rola malik olduğunu təsdiq edən sadalanan səlahiyyətlərin hər biri inzibati mübahisənin predmetindən asılı olaraq işin keyfiyyətli araşdırılmasına xidmət edir.

**Barışıq sazişi.** Hazırlıq icraatı dövründə inzibati hüquqi mübahisə tərəflər arasında barışıq yolu ilə həll edilə və bununla əlaqədar isə tərəflər öz aralarında barışıq sazişi bağlaya bilərlər. Sözügedən saziş məhkəmənin təşəbbüsü ilə və ya tərəflərin öz təşəbbüsü əsasında bağlanıla bilər. İnzibati mübahisə ilə bağlı iş üzrə icraatın dayandırılması əsasları İnzibati Prosessual Məcəllənin 7-ci maddəsində öz əksini tapmışdır. Sözügedən maddənin 3-cü bəndinə əsasən, məhkəmə prosesinin istənilən mərhələsində işin halları nəzərə alınaraq məhkəmə öz təşəbbüsü əsasında, yaxud iş üzrə tərəflərdən hər hansı birinin müraciəti əsasında inzibati mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Əgər tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır [2].

**Sübutların toplanması.** Məhkəmə tərəfindən işə obyektiv surətdə baxılması üçün sübutların düzgün qaydada toplanması xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən isə İnzibati Prosessual Məcəllənin 12-ci maddəsində öz əksini tapmış işin hallarının araşdırılması prinsipi hazırlıq mərhələsində sübutların toplanmasının zəruriliyini daha da artırır. Belə ki, bu mərhələdə hakim həm öz təşəbbüsü ilə, həm də tərəflərin vəsatəti əsasında iş üçün əhəmiyyət kəsb edən sübutların əldə olunması və toplanması istiqamətində tədbirlər həyata keçirməlidir. Hazırlıq icraatında sübutların toplanması proses iştirakçılarının üzərinə də müəyyən vəzifələr qoyur. Tərəflər mübahisənin mahiyyətini müəyyən edən faktların məhkəməyə təqdim olunmasında fəal olmalı, mövqelərini təsdiq edən sənədləri vaxtında təqdim etməlidirlər. Əgər tərəflərdən biri tələb olunan sübutu təqdim etməzsə və bu zaman həmin sübutu almaq imkanının olmadığını əsaslandıra bilərsə, məhkəmə bu halı nəzərə alaraq əlavə sübutların toplanması barədə qərar qəbul edə bilər, lazım gəldikdə müvafiq dövlət qurumlarından, hüquqi və fiziki şəxslərdən əlavə məlumatların təqdim olunması üçün sorğu göndərə bilər. Eyni zamanda məhkəmə proses iştirakçılarından da əlavə sübutları və məlumatları tələb edə bilər.

Proses iştirakçıları tərəfindən hər hansı sübutun məhv edilməsi və ya gizlədilməsi yaxud hər hansı başqa üsulla həmin sübutun araşdırılmasına maneçilik törədilməsi qadağandır. Belə halların baş verdiyi təqdirdə, məhkəmə konkret işlə bağlı bütün xüsusiyyətləri nəzərə alaraq sübut etmə vəzifəsinin dönüşü haqqında qərardad qəbul edə bilər [2].

İnzibati məhkəmə icraatında sübutlar dedikdə yazılı sənədlər, izahatlar, ekspert rəyləri, şahid ifadələri, foto, video, elektron məlumatlar, maddi sübutlar başa düşülür.

**Ekspert rəyi.** İnzibati Prosessual Məcəllənin 29-1-ci maddəsinə əsasən, İnzibati məhkəmə icraatında məhkəmə ekspertizası ilə bağlı məsələlərin tənzimlənməsində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müvafiq müddəaları tətbiq olunur [2].

Mülki Prosessual Məcəllənin 61-ci maddəsinə əsasən, prosesin digər iştirakçılarından biri də ekspertlər hesab olunur. Həmin məcəllənin 63-cü

maddəsinə əsasən isə xüsusi biliyə malik olan, bu Məcəllədə nəzərdə tutulmuş hallarda rəy verməsi zəruri hesab edilən, məhkəmə tərəfindən təyin edilən və ya işdə iştirak edən şəxslərlə ekspertizanın aparılması barədə müqavilə bağlamış şəxs məhkəmədə ekspert qismində çıxış edə bilər. Belə ki, ekspertizanın aparılması tapşırılan şəxs qarşısına qoyulan suallar barədə obyektiv rəy verməyə, həmçinin məhkəmənin çağırışı üzrə gəlməyə borcludur. Əgər ekspert üzərinə qoyulan vəzifəni yerinə yetirmək üçün zəruri biliyə malik olmazsa, bu zaman rəy verməkdən imtina etməlidir. Ekspert iş üzrə rəy vermək zərurəti yarandıqda həmin iş materialları ilə tanış olmaq, məhkəmə iclaslarında bilavasitə iştirak etmək, suallar vermək və məhkəmədən əlavə materialların təqdim edilməsini xahiş etmək hüququna malikdir. Ekspert aparılan ekspertizanın nəticəsi ilə əlaqədar olaraq təqdim etdiyi rəyinə görə məsuliyyət daşıyır. Belə ki, ekspert bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti daşıyır [3].

Məhkəmə tərəfindən ekspertizanın təyin edilməsinə dair Mülki Prosessual Məcəllənin 97-ci maddəsinin məzmununa əsasən, iş üzrə xüsusi bilik tələb olunan sualları izah etmək məqsədilə məhkəmə öz təşəbbüsü ilə və ya tərəflərdən hər hansı birinin vəsatəti əsasında ekspertiza təyin edə bilər. Ekspertizanın keçirilməsi ilə əlaqədar olaraq tərəflər qarşılıqlı razılığa gələrək konkret səlahiyyətli şəxsin ekspert təyin edilməsini məhkəmədən xahiş edə bilər, eyni zamanda ekspertiza keçirilən zaman baxılmalı olan sualları məhkəməyə təqdim edə bilərlər. Ancaq ekspert rəyinin alınması ilə bağlı sualların yekun məzmununu məhkəmə müəyyən edir. Əgər məhkəmə tərəfindən işdə iştirak edən şəxslərin təqdim etdiyi suallar rədd edilərsə, bu zaman məhkəmə həmin sualların rədd edilməsi səbəblərini əsaslandırmalıdır. İş üzrə tərəflər ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna da malikdirlər. Əgər həmin əşya və sənədlər məhkəmə tərəfindən ekspert tədqiqatının obyekt kimi qəbul edilməzsə, bu barədə əsaslandırılmış qərardad qəbul edilməlidir [3].

Lakin bəzi hallarda iş üzrə tərəf qismində çıxış edən şəxs ekspertizanın keçirilməsində iştirak etməkdən imtina edir və ya onun keçirilməsinə mane olan hərəkətlərə yol verir. Bu zaman işin hallarına görə bu tərəfin iştirakı olmadan ekspertizanı keçirmək mümkün deyilsə, məhkəmə hansı tərəfin iştirak etməkdən imtina etməsindən, habelə bunun onun üçün hansı əhəmiyyət kəsb etməsindən asılı olaraq, ekspertiza təyin edilən faktı, onun hüquqi nəticələrini əsaslandırmaqla təsdiq olunmuş və yaxud rədd edilmiş hesab edə bilər [3].

Qeyd etmək lazımdır ki, inzibati məhkəmə icraatı çərçivəsində hazırlıq icraatı mərhələsi inzibati mübahisəyə dair işin mahiyyəti üzrə həlli ilə əlaqədar baxışın təyin olunmasından əvvəl məhkəmə tərəfindən faktiki və prosessual əsasların mövcudluğunun müəyyənləşdirilməsi baxımından vacib bir mərhələdir. Yəni bu mərhələ işə mahiyyəti üzrə baxılmasına hazırlıq məqsədi kəsb edir. Hazırlıq icraatı çərçivəsində məhkəmə öncədən iddianın forma və məzmun baxımından qanunamüvafiqliyini yoxlayır, iş üzrə tərəflərin hüquq və vəzifələrini müəyyən edir, işə mahiyyəti üzrə baxılması üçün zəruri hesab edilən məlumatların və sənədlərin məhkəməyə təqdim edilməsini təmin edir.

Hazırlıq icraatı çərçivəsində məhkəmə tərəfindən qəbul edilən qərardadların siyahısı Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 50-ci maddəsində öz əksini tapmışdır. Həmin maddənin məzmununa əsasən, Sədrlik edən hakim mübahisə ilə bağlı iş üzrə hazırlıq icraatında iş üzrə məhkəmə icraatının dayandırılması, təxirə salınması, iddiaçının iddiadan imtina etməsi, cavabdehin iddianı qəbul etməsi, hüquqi mübahisənin barışıq yolu ilə nizama salınması (tərəflərin barışıq sazişi bağladı-

ğı və ya hüquqi mübahisənin nizama salınması barədə müştərək bəyanatla çıxış etdiyi hallarda, fors-major və ya başqa hallarda), iddianın məbləği, prosessual xərclər və məhkəmə icraatına cəlbetmə barədə qərardad qəbul edir.

**Xarici ölkələrin təcrübəsi**

**Almaniya qanunvericiliyinə əsasən** Almaniyada inzibati məhkəmələr (Verwaltungsgerichte) mərhələli sistem üzrə fəaliyyət göstərir və hazırlıq iclası (Vorbereitende Verhandlung) işin strukturlaşdırılması və mübahisəli məsələlərin aydınlaşdırılması üçün vacib mərhələ hesab olunur. Almaniya qanunvericiliyinə əsasən hazırlıq iclasının məqsədləri aşağıdakılardır :

**1. Mübahisəli məsələlərin daraldılması** – hakim işin əvvəlində tərəflərdən tələb olunan iddiaları, cavabları və mübahisəli məsələləri dəqiqləşdirir, yalnız həqiqətən mübahisəli mövzuların əsas dinlənilməyə çıxarılmasını təmin edir.

**2. Sübutların planlaşdırılması (Beweisanordnung)** – hazırlıq iclasında hakim, hansı sübutların təqdim olunacağını və hansı sübutların öncədən hazır olmasını müəyyən edir. Buraya şahid ifadələri, ekspert rəyləri və sənəd mübadiləsi daxildir.

**3. İşin strukturlaşdırılması və cədvəlin müəyyən edilməsi (Terminplanung & Prozesssteuerung)** – hakim baxışın tarixini, təqdim olunacaq vəsatətlərin müddətini və işin ümumi cədvəlini hazırlayır.

**4. Tərəflərin hüquqlarının qorunması** – bütün tərəflər yazılı və şifahi vəsatət vermək imkanına malikdirlər ki, bu da öz növbəsində Ədalətli Dinləmə (Fair Trial) prinsipini təmin edir [7].

**Türkiyə Respublikasında İnzibati məhkəmə icraatı** sahəsində də hüquqi tənzimlənmənin həyata keçirilməsinə dair qanunvericilikdə hazırlıq icraatı mərhələsi ilə əlaqədar bir sıra oxşar xüsusiyyətləri nəzərdən keçirmək mümkündür. Türkiyədə inzibati məhkəmə icraatı İdari Yargılama Usulü Kanunu (İYUK, 2577 saylı) ilə tənzimlənir. İYUK-a görə, məhkəmə işə daxil olan ərizələri əvvəlcə ilkin (ön) baxışa (incelemeye) məruz qoyur ki, bu mərhələ daha çox işin məhkəmə baxışına hazırlanması məqsədini daşıyır. Həmin qanunun 14-cü maddəsində iddia ərizələri üzrə ilkin baxışa dair müddəalar, 15-ci maddəsində isə ilkin baxış zamanı qəbul edilən qərarlara dair müddəalar öz əksini tapmışdır. Türkiyə qanunvericiliyinə əsasən, ilkin baxış, yəni hazırlıq icraatı mərhələsinin əsas məqsədi məhkəmənin müvafiq işə baxılması üzrə səlahiyyətli olub-olmamasının müəyyənləşdirməsi, məhkəməyə daxil olmuş ərizənin forma və məzmun baxımından qanunun tələblərinə riayət edilməklə tərtib edilib-edilməməsinin müəyyən edilməsi, müddətlərə və formal tələblərə riayət edilməsinin yoxlanılmasından ibarətdir [4]. Məhz bu mərhələnin həyata keçirilməsində başlıca məqsəd məhkəmə tərəfindən işə mahiyyəti üzrə baxılmazdan öncə işin prosessual baxımdan tamlığının təmin edilməsindən, məhkəməyə ünvanlanan əsassız müraciətlərin qarşısına almaqdan, məhkəmə icraatının səmərəli təşkilinə nail olmaqdan ibarətdir.

Yuxarıda qeyd olunan beynəlxalq nümunələrlə Azərbaycan Respublikasında inzibati məhkəmə icraatı zamanı hazırlıq icraatının keçirilməsi qaydalarını müqayisə etdikdə əksər xüsusiyyətlərin oxşar olması qənaətinə gəlirik.

**Mülki və İnzibati məhkəmə icraatında hazırlıq icraatının müqayisəli təhlili.** Hər iki məhkəmə icraatında hazırlıq mərhələsi ilə əlaqədar mövcud olan əsas fərq qanunvericilikdə ərizə məhkəməyə daxil olduqdan sonra hazırlıq iclasının keçirilməsinə dair müddətin nəzərdə tutulması ilə bağlıdır. Belə ki, Mülki Prosessual Məcəllənin 166-cı maddəsinə əsasən, ərizə məhkəməyə daxil olduqdan sonra 40 gündən gec olmayaraq məhkəmənin hazırlıq iclası keçirilir [3]. Lakin İnzibati Prosessual Məcəllədə ərizə məhkəməyə daxil olduqdan sonra hazırlıq iclasının keçirilməsi ilə əlaqədar dəqiq müddət

müəyyən edilməmişdir. Buna görə də məhkəmə tərəfindən hazırlıq iclasının keçirilmə vaxtı işin xarakteri, mürəkkəbliyi və məhkəmənin iş yükü nəzərə alınmaqla təyin edilir. Qanunvericilikdə dəqiq müddətin müəyyən edilməməsi inzibati icraatın daha çevik həyata keçirilməsinə imkan versə də praktikada daha çox məhkəmələr tərəfindən hazırıq iclasının keçirilməsi vaxtının təyin olunmasında gecikmə hallarına yol verildiyi müşahidə olunur. Bu hal isə məhkəmələr tərəfindən daha çox iş yükünün ağır olması ilə əlaqələndirilir.

Eyni zamanda Mülki Prosessual Məcəllənin 172-ci maddəsində məhkəmədə mülki işə baxılması və həll edilməsi ilə bağlı dəqiq müddətlər müəyyən edilmişdir. Belə ki, sözügedən maddənin məzmununa əsasən, işə ağlabatan müddətdə, lakin ərizə məhkəməyə daxil olduğu vaxtdan işə bərpa, aliment tutulmasına dair işlərə 2 ay, ipoteka müqaviləsindən irəli gələn mübahisələr və iflas haqqında işlərə 3 ay, digər mübahisələrə dair işlərə isə 4 ay müddətindən gec olmayaraq baxılmalı və işin həllinə dair qətnamə və ya qərardad çıxarılmalıdır. İşə bərpa, aliment tutulmasına dair işlər, ipoteka müqaviləsindən irəli gələn mübahisələr və iflas haqqında işlər istisna olmaqla, digər mübahisələr dair işlər üzrə müddət işdə iştirak edən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması nəzərə alınmaqla məhkəmənin əsaslandırılmış qərardadı ilə 2 aydan artıq olmayan müddətə uzadıla bilər [3]. İnzibati Prosessual Məcəllədə isə məhkəmədə inzibati mübahisələrə dair işlər üzrə işə baxılması və həllinə dair yekun məhkəmə aktının çıxarılması ilə bağlı dəqiq müddətlər müəyyən edilməmişdir.

Digər tərəfdən isə mülki məhkəmə icraatında iş üzrə tərəflər bərabərhüquqlu şəxslər qismində çıxış etsə də, inzibati icraat zamanı tərəflərdən biri hakimiyyət səlahiyyətlərinə malik dövlət orqanı və ya qurum olur ki, bu da öz növbəsində prosesin xüsusiyyətlərini əhəmiyyətli dərəcədə dəyişir. Məhz buna görə də inzibati icraat zamanı hakim həm obyektiv həqiqətin müəyyən edilməsində, həm də dövlət orqanının təqdim etməli olduğu sənədlərin təmin edilməsində fəal iştirak edir. Nəticə etibarilə inzibati məhkəmə icraatı mülki məhkəmə icraatına nisbətən daha çox hakimin təşəbbüskarlığına və aktiv roluna əsaslanır.

Hesab edirik ki, qanunvericilikdə inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatının aparılması zamanı hazırlıq iclasının keçirilməsi, həmçinin işə baxılması və həll edilməsi ilə bağlı dəqiq müddətlərin müəyyən edilməməsi, iş üzrə ədalət mühakiməsinin həyata keçirilməsində və yekun nəticədə obyektiv həqiqətin müəyyən edilməsində gecikmə hallarının baş verməsinə səbəb ola bilər. Ədalət mühakiməsinin daha effektiv həyata keçirilməsi məqsədilə İnzibati prosessual qanunvericilikdə işin kateqoriyasından asılı olaraq hazırlıq iclasının keçirilməsi və işə baxma müddətləri üçün müvafiq müddət çərçivəsinin nəzərdə tutulması məqsədəmüvafiq hesab olunur.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi // Azərbaycan Respublikasının 2009-cu il 30 iyun tarixli 846-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46956
3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi //Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 780-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs] / URL: https://www.e-qanun.az/framework/46945
4. İdari Yargılama Usulü Kanunu (İYUK, 2577 saylı qanun) [Elektron resurs]/URL: https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=2577&MevzuatTur=1&MevzuatTertip=5

5. Əliyev Sübhan Fərmayıl oğlu. İnzibati hüquq. Dərslik. – Bakı: [n.y.], – 2019. 727 s.
6. Baxşıyeva Nərmin Ənvər qızı.İnzibati hüquqi mübahisələr üzrə məhkəmə icraatı: mahiyyəti və predmeti. – Bakı: "E.L." NPŞ MMC, – 2014. – 224 s.
7. Verwaltungsgerichtsordnung (VwGO) Das Ausfertigungsdatum ist der 21. Januar 1960. [Elektron resurs]/URL: https://www.gesetze-im-internet.de/vwgo/

**Гаджиева Гюльсум Намиг гызы,**
магистрант II курса по специальности "Административное право, административно-процессуальное право, финансово-экономическое право»
кафедры конституционного права юридического факультета
Бакинского государственного университета

**ПОДГОТОВИТЕЛЬНОЕ ПРОИЗВОДСТВО В АДМИНИСТРАТИВНОМ СУДЕ**

**РЕЗЮМЕ**

В статье рассматривается стадия подготовки дела в административном судопроизводстве Азербайджанской Республики и ее значение для эффективной судебной защиты. На основе положений Административного процессуального кодекса, в частности статьи 49, анализируются полномочия суда на данной стадии, включая уточнение предмета спора, сбор доказательств и содействие примирению сторон. Сравнительный анализ с практикой Германии и Турции, а также с гражданским процессом, выявляет отсутствие четко установленных процессуальных сроков в административном судопроизводстве. Делается вывод о целесообразности закрепления конкретных сроков для повышения эффективности правосудия и правовой определенности.

**Hajiyeva Gulsum Namig**,
2nd year master's student, "Administrative Law, Administrative Procedural Law, Financial and Economic Law" specialty, Department of Constitutional Law, Faculty of Law, Baku State University

**PREPARATORY PROCEEDINGS IN ADMINISTRATIVE COURT**

**SUMMARY**

This article analyzes the preparation stage of administrative court proceedings in the Republic of Azerbaijan and its role in ensuring effective judicial protection. Based on the Administrative Procedural Code, particularly Article 49, the study examines the powers of the court during this stage, including clarification of the dispute, collection of evidence, and promotion of amicable settlement. A comparative analysis with the administrative practices of Germany and Turkey, as well as with civil procedure, reveals the absence of clearly defined procedural time limits in administrative proceedings. The article concludes that establishing specific timeframes for preparatory hearings and case resolution would enhance judicial efficiency and legal certainty.

**Redaksiyaya daxilolma tarixi: 08.12.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 19.01.2026**
**Çapa qəbul olunma tarixi: 21.01.2026**